UNEC, İl 13, Cild 13, iyul – sentyabr, 2025, səh. 79-94
UNEC, Year 13, Volume 13, July – September 2025, pp. 79-94

# KƏND TƏSƏRRÜFATININ RESURS TƏMİNATI BAZARINDA RƏQABƏT ŞƏRAİTİ

*Daxil olub: 18 iyul 2025-ci il*
*Qəbul olunub: 1 sentyabr 2025-ci il*

*Received: 18 July 2025*
*Accepted: 1 September 2025*

***Anar Bayramov***
*doktorant, Aqrar Tədqiqatlar Mərkəzi*
*a.v.bayramov@gmail.com*
*https://orcid.org/0009-0004-2167-4204*

***https://doi.org/10.30546/UNECSR.2025.15.3.020***

**Xülasə**
Məqalədə Azərbaycanda kənd təsərrüfatı resurs təminatı bazarının, o cümlədən texnika, gübrə, pestisid, toxum və aqrotexniki xidmətlər bazarlarının rəqabət şəraiti təhlil olunur. Tədqiqatın əsas məqsədi bu bazarlarda mövcud rəqabət mühitinin qiymətləndirilməsi və gələcək inkişaf üçün praktiki tövsiyələrin verilməsidir. Tədqiqat konkret resurs seqmentləri (toxum, gübrə, texnika, pestisid) üzrə rəqabət vəziyyətini struktur və funksional aspektlərdən, dövlət iştirakçısının rolu, özəl sektorun fəaliyyəti və regional fərqliliklər baxımından təhlil edir.
Təhlil FAO, Dövlət Statistika Komitəsi, Aqroservis ASC, Aqrar Tədqiqatlar Mərkəzi və AKİA-nın rəsmi məlumatları, habelə fermer sorğularının nəticələrinə əsaslanır. Rəqabət səviyyəsi bazar payı (CR1), qiymətdən razılıq dərəcəsi və bazara giriş maneələri kimi göstəricilər çərçivəsində qiymətləndirilmişdir.
Araşdırma göstərir ki, 2018-ci ildən sonra bazarın liberallaşması sayəsində ümumi rəqabət şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşmış, fermerlərin əlçatanlığı və məmnunluğu artmışdır. Lakin bəzi regionlarda texnika icarəsi kimi sahələrdə dövlət iştirakçısının dominantlığı və lokal inhisarçılıq riskləri davam edir. Tədqiqat texnika bazarında özəl təşəbbüslərin dəstəklənməsi, keyfiyyət standartlarının sərtləşdirilməsi və regional əlçatanlığın artırılması üzrə tövsiyələr irəli sürür.

***Açar sözlər:*** *kənd təsərrüfatı, resurs təminatı, bazar strukturu, rəqabət mühiti, aqrar xidmətlər.*

## COMPETITIVE ENVIRONMENT IN THE AGRICULTURAL INPUT SUPPLY MARKET

***Anar Bayramov***
*Ph.D. student, Agricultural Research Center*

**Abstract**
This article analyzes the competitive environment of the agricultural input supply market in Azerbaijan, including the markets for machinery, fertilizers, pesticides, seeds, and agro-technical services. The main objective of the research is to assess the existing level of competition in these markets and to provide practical recommendations for future development. The study examines the competitive conditions in specific resource segments (seeds, fertilizers, machinery, pesticides) from both structural and functional perspectives, taking into account the role of the public sector, the activity of private players, and regional disparities.

The analysis is based on official data from FAO, the State Statistical Committee, Agroservis OJSC, the Agricultural Research Center, and AKIA, as well as the results of farmer surveys. The level of competition is evaluated using indicators such as market share (CR1), satisfaction with prices, and barriers to market entry.

The findings show that, following market liberalization after 2018, the overall competitive environment has significantly improved, with increased accessibility and satisfaction among farmers. However, in some regions, state dominance in areas such as machinery leasing and risks of local monopolies still persist. The study recommends supporting private initiatives in the machinery market, strengthening quality standards, and improving regional accessibility.

***Keywords***: *agriculture, input supply, market structure, competitive environment, agrarian services.*

## КОНКУРЕНТНАЯ СРЕДА НА РЫНКЕ ОБЕСПЕЧЕНИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА РЕСУРСАМИ

***Анар Байрамов***
*докторант, Центр аграрных исследований*

**Резюме**
В статье анализируется конкурентная среда на рынке обеспечения сельского хозяйства в Азербайджане, включая рынки сельскохозяйственной техники, удобрений, пестицидов, семян и агротехнических услуг. Основная цель исследования — оценка существующей конкурентной среды на этих рынках и разработка практических рекомендаций для их дальнейшего развития. Конкурентная ситуация в отдельных сегментах ресурсов (семена, удобрения, техника, пестициды) рассматривается с точки зрения структурных и функциональных аспектов, с учетом роли государства, деятельности частного сектора и региональных различий.

Анализ основан на официальных данных ФАО, Государственного комитета по статистике, ОАО «Агросервис», Центра аграрных исследований и АКИА, а также на результатах опросов фермеров. Уровень конкуренции оценивался с использованием таких показателей, как доля рынка (CR1), степень удовлетворенности ценами и барьеры для входа на рынок.
Исследование показывает, что после либерализации рынка с 2018 года общая конкурентная среда значительно улучшилась, повысилась доступность ресурсов и удовлетворенность фермеров. Однако в отдельных регионах сохраняется доминирующая роль государства в таких сферах, как аренда сельхозтехники, и риски локальных монополий. В исследовании предлагаются рекомендации по поддержке частных инициатив на рынке техники, ужесточению стандартов качества и повышению региональной доступности.

***Ключевые слова***: *сельское хозяйство, обеспечение ресурсами, структура рынка, конкурентная среда, аграрные услуги.*

## Giriş

Azərbaycanda kənd təsərrüfatı sektoru iqtisadiyyatın dayanıqlı inkişafında və ərzaq təhlükəsizliyinin təminində mühüm rol oynayır. Aqrar sektor istehsal amillərinin (torpaq, kapital, əmək və resurslar) təminatı baxımından həm daxili, həm də xarici mənbələrə əsaslanır. Xüsusilə resurs təminatı sahəsi — toxum, gübrə, texnika, pestisidlər, baytarlıq preparatları və digər materiallar üzrə bazar iştirakçılarının sayı, bazarın konsentrasiya səviyyəsi və regional fərqliliklər kənd təsərrüfatı məhsuldarlığına və fermerlərin rəqabət qabiliyyətinə birbaşa təsir göstərir. Resurs bazarlarında sağlam rəqabət fermerlərin seçim imkanlarını artırmaqla yanaşı, qiymət və keyfiyyət göstəricilərini də yaxşılaşdırır.

Məqalənin məqsədi Azərbaycanın kənd təsərrüfatı resurs təminatı bazarında rəqabət mühitinin qiymətləndirilməsi və rəqabətin gücləndirilməsi üzrə tövsiyələrin hazırlanmasından ibarətdir.

Təhlil FAO, Dövlət Statistika Komitəsi, Aqroservis ASC, Aqrar Tədqiqatlar Mərkəzi və AKİA kimi qurumların rəsmi məlumatlarına əsaslanır. Aqroservis ASC-yə birbaşa müraciət olunaraq, rəsmi məlumatlar əldə edilmişdir.

Rəqabət səviyyəsinin ölçülməsi üçün aşağıdakı göstəricilərdən istifadə olunmuşdur: bazar payı (CR1 təmərküzləşmə indeksi), qiymətdən razılıq səviyyəsi, bazara giriş maneələri.
Məqalə struktur baxımından 2 bölmədən ibarətdir. Birinci bölmədə kənd təsərrüfatı resurs təminatı bazarı ümumi kənd təsərrüfatı dəyər zənciri kontekstində təsvir olunur. İkinci bölmədə isə resurs təminatı bazarının vəziyyəti xronoloji olaraq, eyni zamanda kəmiyyət və keyfiyyət baxımından təhlil olunur, nəticələr çıxarılır.

## Ədəbiyyat icmalı

Kənd təsərrüfatı resurs təminatı bazarlarında rəqabət mühitinin təhlili iqtisadi ədəbiyyatda geniş müzakirə olunan mövzulardandır. Mövcud ədəbiyyat daha çox ümumi statistika və institusional dəyişikliklərə fokuslanarkən, bu tədqiqat konkret resurs seqmentləri üzrə (texnika, gübrə, pestisid, toxum və s.) rəqabət vəziyyətini həm struktur, həm də funksional aspektlərdən qiymətləndirir. Xüsusilə dövlət iştirakçısının bazar payının dinamikası, özəl sektorun rolu, regionlar üzrə çıxış imkanları və xidmət keyfiyyəti kimi elementlərin təhlili tədqiqatın fərqliliyini ortaya qoyur.

Rəqabət mühitinin qiymətləndirilməsində Porter (1980) tərəfindən təklif olunan "Beş Güc Modeli", bazarda iştirakçıların gücü, alternativlərin mövcudluğu və bazara giriş maneələrinin müəyyənləşdirilməsində geniş istifadə olunur [1]. Bundan əlavə, Herfindahl-Hirschman İndeksi (HHI), CR göstəriciləri və Boone göstəricisi kimi yanaşmalar da bazar strukturunun ölçülməsində əsas alətlər sayılır [2].

FAO-nun (2023) "The State of Food and Agriculture" hesabatında qeyd olunur ki, inkişaf etməkdə olan ölkələrdə dövlətin bazarda iştirak səviyyəsi və regionlararası infrastruktur fərqlilikləri rəqabətə birbaşa təsir edən amillərdir. Resurs bazarlarında sağlam rəqabət yalnız bazara çıxış imkanlarının bərabər şəkildə təmin olunduğu və özəl sektorun fəal iştirak etdiyi hallarda mümkün olur [3].

H.Xəlilov, S.Hacıyeva və N.Qasımovanın tədqiqatında kənd təsərrüfatı məhsulları bazarında rəqabət mühitinin xüsusiyyətləri ilə yanaşı, dəyər zəncirinin digər vəsilələri ilə, eyni zamanda resurs təminatı bazarı ilə vertikal münasibətlər də təhlil edilmişdir. Qeyd edilmişdir ki, inkişaf etməkdə olan iqtisadiyyatlarda aqrar sahədə rəqabət mühitinin təkmilləşdirilməsinin məhsul növləri üzrə dəyər zəncirləri boyunca vertikal əlaqələrin inkişafı, əlverişli institusional çərçivənin formalaş-dırılması ilə bağlı məsələlərin kənd təsərrüfatında daxili rəqabətin qorunması və rəqabət intensivliyinin yüksəldilməsi ilə vahid kompleksdə həllinə ehtiyac yaranır [4].

Digər tərəfdən, Dünya Bankının "Enabling the Business of Agriculture" (EBA) hesabatlarında (2021) resurs təminatı ilə bağlı hüquqi və institusional mühitin rəqabətə təsiri geniş təhlil olunur. Hesabatda toxum və gübrə bazarlarında tənzimləyici çərçivənin liberallığı ilə məhsuldarlıq arasında əlaqə qurulur. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə bu çərçivələrin səmərəliliyi resursların fermerlərə çatdırılmasında rəqabətin səviyyəsini müəyyən edən mühüm amillərdən biri kimi qiymətləndirilir [5].

## Resurs təminatı bazarı kənd təsərrüfatı dəyər zənciri kontekstində

Kənd təsərrüfatı dəyər zəncirinin 4 əsas mərhələsi mövcuddur: kənd təsərrüfatı üçün əsas resursların təminatı, kənd təsərrüfatı istehsalı, kənd təsərrüfatı məhsullarının emalı və pərakəndə satış.




**Qrafik 1. Kənd təsərrüfatı məhsulları üzrə dəyər zəncirinin vertikal vəsilələri**
*Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.*

Kənd təsərrüfatında ümumi rəqabətlilikdən danışan zaman hər bir vəsilə üzrə rəqabət şəraitinə baxmağa zərurət yaranır. Qeyd edək ki, ümumi rəqabət şəraiti həm vəsilə daxilində, həm də vəsilələrarası rəqabət sağlam olduqda əlverişli hesab edilir.

Resurs təminatı bazarındakı vəziyyət birbaşa və dolayı şəkildə digər vəsilələr üzrə də rəqabət şəraitinə təsir göstərir. Bundan əlavə, resurs qiymətlərinin səviyyəsi kənd təsərrüfatı məhsullarının maya dəyərinə və qiymətinə təsir edir.

Kənd təsərrüfatı resurs təminatı bazarı aşağıdakı əsas seqmentlərə bölünür:




**Qrafik 2. Resurs təminatı bazarının strukturu**
*Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.*

Kənd təsərrüfatı sektoru həm əsas vəsait üzrə investisiya tələb edir, həm də dövriyyə vəsaitinə ehtiyac yaranır. Nəzərə alsaq ki, bu sektorda əksər iştirakçılar kiçik fermerlərdir, resurs təminatına dövlət dəstəyi daim aktuallığını qorumuşdur. Bu istiqa-mətdə zaman-zaman dövlətin siyasəti, yanaşması və qanunvericilik təkmilləşmişdir.

## Bazarın inkişafı və rəqabətin qiymətləndirilməsi

Azərbaycanın kənd təsərrüfatı resurs təminatı bazarlarında rəqabət şəraitinin qiymətləndirilməsi kompleks yanaşma tələb edir. Qiymətləndirmə yalnız statistik göstəricilərlə müəyyənləşməməlidir. Regionlar üzrə dislokasiya, xidmət keyfiyyəti, logistika imkanları və fermerlərin davranışları da rəqabətin real dərəcəsinə təsir edən mühüm amillər sırasındadır.

Azərbaycanın kənd təsərrüfatı istehsalında baş verən keyfiyyət və kəmiyyət dəyişiklikləri nəticəsində resurs bazarları genişlənmişdir. Bunun sayəsində giriş

resurslarının həcmi sürətlə artmışdır. Bu artım özünü həm kənd təsərrüfatı texnikasında, həm də digər resurslarda (gübrə, pestisid və s.) göstərir. Aşağıdakı cədvəldə 2009-2023-cü illərdə əsas giriş resurslarının və kənd təsərrüfatı məhsullarının fiziki həcminin artım tempinə dair göstəricilər verilmişdir. Bu artım birbaşa olaraq kənd təsərrüfatı istehsalında həyata keçirilən intensivləşdirmə ilə də bağlıdır ki, məhsuldarlığın yüksəldilməsində də özünü göstərmişdir.

**Cədvəl 1. Giriş resurslarının və məhsul istehsalının illər üzrə artımı**

| Resurslar | 2009 | 2013 | 2018 | 2022 | 2023 | Artım (dəfə) 2009-2013 |
|---|---|---|---|---|---|---|
| Traktorlar (min ədəd) | 21.5 | 23.5 | 34.8 | 38.4 | 40.2 | 1.87 |
| Taxılyığan kombaynlar (min ədəd) | 2.2 | 2.1 | 3.7 | 3.6 | 3.4 | 1.55 |
| Mineral gübrələr (min ton) | 70.7 | 93.2 | 453.7 | 396.7 | 375.9 | 5.32 |
| Pestisidlər (ton) | 316.18 | 489.8 | 542.82 | 542.82 | M/Y | 1.72* |
| Yararlı əkin yeri (mln ha) | 1.833 | 1.884 | 2.058 | 2.053 | 2.037 | 1.11 |
| Kənd təsərrüfatı məhsullarının fiziki həcm indeksi (1995=100) | 199.5 | 230.8 | 268 | 313.3 | 322.7 | 1.62 |

**2023-cü ilin məlumatı olmadığı üçün son il kimi 2022-ci ilin məlumatı əsas götürülmüşdür*

*Mənbə: müəllif tərəfindən rəsmi statistik məlumatlardan istifadə edilərək hazırlanmışdır.*

Araşdırılan dövrdə bazarın həcminin artması ilə yanaşı, strukturunda da dəyişiklik baş vermişdir. 2004-cü ildə yaradılmış "Aqrolizinq" ASC kənd təsərrüfatı texnikasının, gübrələrin və digər istehsal vasitələrinin fermerlərə lizinq yolu ilə çatdırılmasını həyata keçirən əsas dövlət qurumu olmuşdur. Yaradıldığı dövrdən etibarən dövlət büdcəsi hesabına maliyyələşdirilən bu qurum uzun müddət kənd təsərrüfatı resurslarının əsas təchizatçısı kimi fəaliyyət göstərmişdir. 2004–2018-ci illər ərzində dövlət subsidiyalarının yalnız Aqrolizinq vasitəsilə təqdim olunması, fermerlərin digər təchizatçılardan alış etdikdə eyni güzəştlərdən yararlana bilməməsi və Aqrolizinqin geniş regional şəbəkəsinin olması nəticə etibarilə bu qurumun bazarda faktiki inhisarçı mövqe əldə etməsinə səbəb olmuşdur [6]. Məsələn, 2018-ci ildə mineral gübrə bazarında [7] Aqrolizinqin payı 39% təşkil etmişdir [8].

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2018-ci il tarixli "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Fərmanına əsasən bütün tədarükçülərə eyni şərait yaradıldı və bu fərman bazarın liberallaşdırılması istiqamətində dönüş nöqtəsi oldu. Fərmanın 2-ci bəndində

qeyd olunur ki, "…dövlət büdcəsinin vəsaiti hesabına verilən güzəştlər kənd təsərrüfatı istehsal vasitələrinin (kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığın, suvarma sistemləri dəsti və avadanlığının, damazlıq heyvanların) ticarəti ilə məşğul olan bütün hüquqi və fiziki şəxslərin həyata keçirdikləri satışlara (lizinq və ya kredit yolu ilə) şamil edilsin" [9].

Aqrolizinq ASC (sonradan adı dəyişdirilərək Aqroservis ASC oldu) bu fərmandan sonrakı dövrdə də bazar iştirakçılarından biri olaraq qalıb, bununla belə digər tədarükçülərə də şərait yaradılmışdır. Nəticədə bazarda Aqroservis ASC payı kəskin azalmışdır. Belə ki, 2022 və 2023-cü illərdə mineral gübrə bazarında [7] sözügedən qurumun payı 10% -ə düşmüşdür [6].

Aşağıdakı cədvəldə "Aqroservis" ASC-nin yerli qurumlarının dislokasiyasından [10] göründüyü kimi, bütün ölkə boyu fermerlər yaxın məsafədə aqroservis xidmətlərinə çıxış əldə edə bilirlər. Bu amil fermerlərin resurslara çıxışını asan-laşdırdığı və bərabər şəraitin olduğu üçün sağlam rəqabət göstəricisi sayılmalıdır. Lakin nəzərə almaq lazımdır ki, hər bir rayonda fiziki olaraq yalnız bir "Aqroservis" bölməsinin mövcudluğu və alternativlərin azlığı müəyyən regionlarda lokal inhisarçılıq riski yarada bilər. Bu cür lokal inhisarçılıq hallarında fermerlərin seçim imkanları məhdudlaşır, qiymət və keyfiyyət üzərində rəqabət zəifləyir.

**Cədvəl 2. "Aqroservis" ASC-nin yerli qurumlarının adları və onların dislokasiyası**

| S/S | Regional nümayəndəliklər və onların tabeliyində olan rayon bölmələri | Ünvanları |
|---|---|---|
| 1. | Şəki Regional Nümayəndəliyi | Şəki rayonu, Çələbixan qəsəbəsi<br>Şəki rayonu, Cəfərabad kəndi |
| 2. | Zaqatala rayon bölməsi | Zaqatala r-nu, Muxax kəndi |
| 3. | Balakən rayon bölməsi | Balakən şəhəri, 28 may küç 25 |
| 4. | Qax rayon bölməsi | Qax r-nu. Şıxlar kəndi |
| 5. | Oğuz rayon bölməsi | Oğuz rayonu, Bucaq kəndi |
| 6. | Qəbələ rayon bölməsi | Qəbələ r-nu, Böyük Əmili kəndi |
| 7. | Sabirabad Regional Nümayəndəliyi | Sabirabad r-nu, Qaratəpə kəndi |
| 8. | Saatlı rayon bölməsi | Saatlı şəh, Mirağa Ağayev küç 63 |
| 9. | Salyan rayon bölməsi | Salyan r-nu. Dayıkənd kəndi |
| 10. | Neftçala rayon bölməsi | Neftçala r-nu, Xıllı qəsəbəsi |
| 11. | Xaçmaz Regional Nümayəndəliyi | Xaçmaz şəhəri, Bakı prospekti 16B<br>Xaçmaz rayonu, Çarxı kəndi |
| 12. | Qusar rayon bölməsi | Qusar r-nu, Qalacıq kəndi |
| 13. | Quba rayon bölməsi | Quba r-nu, Nügədi Qazmalar kəndi |
| 14. | Siyəzən-Xızı rayon bölməsi | Siyəzən r-nu, Yenikənd kəndi |
| 15. | Şabran rayon bölməsi | Şabran r-nu, Padar kəndi |

| | | |
|---|---|---|
| 16. | Şəmkir Regional Nümayəndəliyi | Şəmkir r-nu, Dəllər-Cəyir qəsəbəsi, Çaparlı yolu |
| 17. | Tovuz rayon bölməsi | Tovuz r-nu, Əyyublu kəndi |
| 18. | Qazax rayon bölməsi | Qazax r-nu, Yuxarı Salahlı kəndi |
| 19. | Göygöl rayon bölməsi | Göygöl r-nu, Quşqara kəndi |
| 20. | Ağstafa rayon bölməsi | Ağstafa şəh.,M.Ə.Rəsulzadə küç.,döngə 6 |
| 21. | Cəlilabad Regional Nümayəndəliyi | Cəlilabad r-nu, Uzuntəpə kəndi |
| 22. | Biləsuvar rayon bölməsi | Biləsuvar şəhəri, Biləsuvar-Bəhrəmtəpə yolunun 4-cü km. |
| 23. | Lənkaran-Lerik-Astara rayon bölməsi | Lənkəran r-nu, Göyşaban kəndi |
| 24. | Masallı-Yardımlı rayon bölməsi | Masallı r-nu, Təzə Alvadı kəndi |
| 25. | Bərdə Regional Nümayəndəliyi | Bərdə r-nu, Qasımbəyli kənd yolu |
| 26. | Ağdam rayon bölməsi | Ağdam r-nu, Quzanlı qəs |
| 27. | Tərtər rayon bölməsi | Tərtər r-nu, Bəyimsarov kəndi |
| 28. | Ağdərə rayon bölməsi | Ağdərə rayonu mərkəzi |
| 29. | Yevlax Regional Nümayəndəliyi | Yevlax şəhəri, Nizami Gəncəvi prospekti, 4A |
| 30. | Goranboy rayon bölməsi | Goranboy r-nu, Dəliməmmədli şəhəri,T.Əkbərov küç.26 |
| 31. | Ağdaş rayon bölməsi | Ağdaş r-nu, Aşağı Zeynəddin kəndi |
| 32. | Ucar rayon bölməsi | Ucar r-nu Alpout kəndi |
| 33. | Göyçay rayon bölməsi | Göyçay r-nu, Ləkçıplaq kəndi |
| 34. | Ağcabədi regional Nümayəndəliyi | Ağcabədi r-nu, Hindarx qəsəbəsi |
| 35. | Beyləqan-Xocavənd rayon bölməsi | Beyləqan rayonu, Allahyarlı kəndinə dönən yol |
| 36. | Füzuli rayon bölməsi | Füzuli rayonu, Horadiz şəhəri, M.Ə.Rəsulzadə küçəsi |
| 37. | Zərdab rayon bölməsi | Zərdab r-nu, Gəlmə kəndi |
| 38. | Qobustan Regional Nümayəndəliyi | Qobustan r-nu, Təklə kəndi |
| 39. | Ağsu rayon bölməsi | Ağsu r-nu, Qaraqoyunlu kəndi |
| 40. | Şamaxı rayon bölməsi | Şamaxı r-nu, Mərzəndiyə kəndi |
| 41. | Kürdəmir rayon bölməsi | Kürdəmir r-nu, Qarabucaq qəs. |
| 42. | Şirvan Təchizat və satış mərkəzi | Şirvan şəh, Çılpaqlı qəs, Neftçilər küçəsi 6 |
| 43. | Gəncə Təchizat Təchizat və satış mərkəzi | Gəncə şəh. Z.Hacıyev küç.1 |
| 44. | Ucar Təchizat Təchizat və satış mərkəzi | Ucar şəh, H.Əliyev prospekti. Döngə 29/3 |
| 45. | İsmayıllı rayonu üzrə gübrə satış məntəqəsi | İsmayıllı ş., Ələkbərzadə küçəsi |
| 46. | Heyvandarlıq Nümayiş Kompleksi | Qobustan rayonu, Bakı-Şamaxı yolu 96-cı km.<br>Qobustan rayonu, Mərəzə qəsəbəsi |

*Mənbə: Aqroservis ASC-nin rəsmi məlumatı [10].*

Cədvəldən göründüyü kimi, "Aqroservis" ASC-nin struktur vahidləri ölkənin bütün əsas iqtisadi-coğrafi zonalarında formalaşdırılmışdır. Regional şəbəkənin bu şəkildə geniş dislokasiyası resurs təminatında bərabərliyin təmin olunması baxımından mühüm göstərici hesab edilə bilər. Bununla belə, nümayəndəliklərin idarəetmə yükü və xidmət ərazilərinin ölçüləri fərqlidir ki, bu da regionlar üzrə fermerlərin resurslara çıxış imkanlarında müəyyən keyfiyyət fərqləri yarada bilər. Məsələn, bəzi regionlarda (Şəki, Sabirabad, Şəmkir, Bərdə, Cəlilabad və s.) nümayəndəliklər ətraf rayonların koordinasiyalı təminatını həyata keçirir. Bu, resursların bölgüsündə mərkəzləşdirilmiş idarəetmənin rolunu gücləndirsə də, xidmətin çevikliyinə və operativliyinə təsir göstərə bilər. Əksinə, yalnız bir rayon bölməsi ilə təmsil olunan ucqar və dağlıq ərazilərdə isə alternativlərin azlığı fonunda rəqabət mexanizmləri zəifləyir. Nəticə etibarilə, cədvəldə təqdim olunan dislokasiya həm resursların ölkə üzrə balanslı şəkildə yayılmasını təmin edir, həm də müəyyən regionlarda lokal asılılıq risklərinin mövcud olduğunu göstərir. Bu baxımdan, gələcəkdə özəl sektorun iştirakı və alternativ təchizat kanallarının formalaşdırılması aqrar resurs bazarında daha yetkin rəqabət mühitinin yaranması üçün zəruri hesab edilə bilər.

Rəqabətin vəziyyətini dəyərləndirmək üçün həm də təchizatçıların davranışına nəzər yetirmək vacibdir. Bu məqsədlə "Aqroservis" ASC-nin texnikaların güzəştli satışı [11] və mineral gübrələrin alqı-satqısı [12] üzrə təqdim etdiyi standart müqavilələr təhlil edilmişdir.

Texnika satışı müqaviləsində qeyd olunur ki, fermer texnikanı yalnız satış dəyərini tam şəkildə əvvəlcədən ödədikdən sonra əldə edə bilir və texnika 20 gün ərzində saz vəziyyətdə təhvil verilir. Satıcı yalnız istehsal qüsurlarına görə, istehsalçının zəmanət müddəti ərzində məsuliyyət daşıyır və texnikanın daşınması ilə bağlı bütün xərclər alıcıya məxsusdur.

Gübrə alqı-satqısı müqaviləsində isə fermer satıcıya əvvəlcədən ödəniş etməli, gübrəni təhvil almalı və daşınma xərclərini özü qarşılamalıdır. Müqavilədə qiymət və satış qaydaları birbaşa Prezidentin 2019-cu il tarixli 759 nömrəli Fərmanı ilə tənzimlənən subsidiyalaşdırma qaydalarına istinadən müəyyən olunmuşdur.

Hər iki müqavilənin ümumi strukturuna əsasən qeyd edilə bilər ki, şərtlər standart və şəffafdır, hər hansı ekskluziv güzəşt və ya haqsız üstünlük verilməsinə dair elementlər müşahidə olunmur. Qiymətlər bazar mexanizmləri və ya dövlətin müəyyən etdiyi çərçivələr daxilində tənzimlənir, alıcıların seçim azadlığına və

alternativ təchizatçılardan faydalanmaq imkanlarına hüquqi məhdudiyyət tətbiq olunmur.

Bununla belə, bu müqavilələrin daha da təkmilləşdirilməsi üçün təkliflər də mövcuddur. Məsələn, texnika satışında ödənişin mərhələli şəkildə həyata keçirilməsi və ya lizinq şərtlərinin daha əlçatan olması, eləcə də daşınma xərclərinin bir hissəsinin dövlət tərəfindən qarşılanması fermerlərin maliyyə yükünü azalda bilər.

Kənd təsərrüfatı texnikası ilə təminatın ölkə üzrə ümumi səviyyəsi aşağıdakı cədvəldə təsvir edilmişdir [13]. Cədvəldən göründüyü kimi, 10 il (2013–2023) ərzində kənd təsərrüfatı texnikası ilə təminatda ciddi dəyişiklik baş vermişdir. Bu artımda dövlət təşviqlərinin, güzəşt mexanizmlərinin və texnika alışına verilən subsidiyaların mühüm rolu olmuşdur. Texnika təminatının say olaraq artması yalnız rəqabət şəraitinə deyil, ümumilikdə bazarın inkişafına müsbət təsir göstərmişdir. Belə ki, texnika bazarındakı bu genişlənmə özünü yalnız təchizatın fiziki həcminin artımında deyil, həm də təchizatçı aktorların (özəl distribyutorlar, icarəyə verənlər və xidmət şirkətləri) sayının çoxalmasında, texnikaların coğrafi əlçatanlığının artmasında və xidmət keyfiyyətinin yüksəlməsində göstərmişdir. Təkcə “Volza” qlobal ticarət portalında qeydiyyata əsasən görmək olur ki, Azərbaycanda kənd təsərrüfatı texnikası idxalçılarının sayı azı 61 şirkətdir. Dünyanın 46 ölkəsindən idxal olunur [14].

Digər tərəfdən, texnikanın əkin sahələrinə görə düşmə göstəricilərinin yaxşılaşması (məsələn, 1000 ha əkinə düşən traktor sayının 2013-cü ildə 13.9-dan 2023-cü ildə 26.3-ə yüksəlməsi) onu göstərir ki, bazarın həm miqyas, həm də struktur baxımından genişlənməsi baş vermişdir. Bu isə aqrotexniki xidmət göstərən müəssisələrin bazar gücünü balanslaşdırır, yeni bazar iştirakçılarının cəlbini stimullaşdırır və uzunmüddətli perspektivdə daha yetkin bir kənd təsərrüfatı texnika bazarının formalaşmasına şərait yaradır.

**Cədvəl 2. Kənd təsərrüfatının texnika ilə təminatı**

| | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1000 ha əkinə traktor düşür, ədəd | 13.9 | 14.3 | 7.7 | 10.5 | 13.1 | 20.0 | 20.4 | 21.3 | 22.2 | 23.8 | 26.3 |
| Bir traktora düşən əkin, ha | 72 | 70 | 129 | 96 | 76 | 50 | 49 | 47 | 45 | 42 | 38 |
| **Müvafiq bitkilərin min hektar əkin sahəsinə düşən kombaynların (maşınların) sayı, ədəd** | | | | | | | | | | | |
| Taxilyığan | 2.1 | 2.3 | 0.7 | 1.4 | 1.8 | 3.5 | 3.7 | 3.8 | 3.7 | 3.8 | 3.7 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qarğıdalıyığan | 0.2 | 0.2 | 0.1 | 0.1 | 0.1 | 0.3 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.2 |
| Kartofyığan | 0.6 | 0.6 | 0.1 | 0.1 | 0.2 | 0.7 | 0.8 | 0.9 | 1.1 | 1.2 | 1.3 |
| Çuğunduryığan | 1.8 | 1.6 | 1.2 | 0.1 | 0.6 | 3.6 | 4.8 | 6.8 | 27.8 | 27.8 | 31.3 |
| Pambıqyığan | 2.2 | 3.7 | 4.6 | 1.7 | 2.3 | 3.7 | 4.8 | 4.8 | 4.9 | 4.9 | 5.7 |

*Qeyd. Məlumatlar Dövlət Statistika Komitəsinin 1.15 (Kənd təsərrüfatının texnika ilə təminatı) hesabatından götürülmüşdür.*

Aqroservis ASC-nin məlumatlarını [15] və Dövlət Statistika Komitəsinin müvafiq məlumatlarına [16] əsasən 2023-cü ildə ölkə üzrə mövcud olan taxılyığan kombaynların sayının (3400 ədəd) 674-ü təkcə Aqroservis ASC-nin payına düşmüş və ya təxminən 20% təşkil etmişdir.

İstehsal xidmətləri bazarında "Aqroservis" ASC-nin rolu nisbətən nəzərə çarpandır. Belə ki, 2024-cü ildə taxıl biçini prosesində 1,635 kombayn iştirak edib. Bunlardan 579 ədədi (35%) "Aqroservis" ASC-yə, 1,056 ədədi isə (65%) fiziki və hüquqi şəxslərə məxsus olmuşdur [17].

Burdan görünür ki, "Aqroservis" kombayn istifadəsində ciddi paya (CR1=35%) malikdir və bəzi regionlarda *dominant oyunçu* kimi çıxış edə bilər. Xüsusilə də, dağlıq və ucqar rayonlarda, kənd təsərrüfatı texnikası az olduğu yerlərdə fermerlər "Aqroservis"dən asılı vəziyyətdə qala bilirlər.

Lakin traktor bazarında "Aqroservis" ASC-nin payı cüzi (0.9%) olaraq qalır. Bu da onu göstərir ki, traktor bazarında dövlət iştirakçısının rolu çox zəifdir və bazar əsasən özəl sektor tərəfindən formalaşdırılır. Bu fərqlilik texnika bazarının müxtəlif seqmentlərində rəqabət səviyyəsinin qeyri-bərabər olduğunu və resurs tipindən asılı olaraq dövlətin bazar gücünün dəyişdiyini göstərir.

Texnika bazarında rəqabət şəraitinə mənfi təsir edən amillərdən biri bazara girişin çətinliyidir. Belə ki, texnika alışı üçün yüksək ilkin investisiya (məsələn, kombaynların qiyməti 200-400 min AZN) tələb olunur.

Azərbaycanın aqrar sektorunda məhsuldarlığın artırılması və bitki xəstəliklərinə qarşı mübarizənin effektiv təşkili məqsədilə pestisidlərin istifadəsi mühüm yer tutur. FAO-nun (2023) məlumatına əsasən 2022-ci ildə ölkədə ümumilikdə 543 ton pestisid istifadəsi qeydə alınmışdır [18]. Bu göstərici ölkə üzrə rəsmi istifadənin miqyasını təyin etməyə imkan verir və bazar iştirakçılarının rolunun qiymətləndirilməsi üçün əsas baza yaradır.

“Aqroservis” ASC tərəfindən təqdim edilmiş statistikaya əsasən, 2020–2024-cü illər ərzində ümumilikdə 213.455,15 litr/kq pestisid satılmışdır. Təkcə 2022-ci ildə bu qurum tərəfindən 39.862,17 litr/kq həcmində pestisid satışı həyata keçirilmişdir. Bu məlumat FAO tərəfindən qeyd olunan 543 tonluq ümumi istifadəyə nisbətlə analiz edildikdə, “Aqroservis” ASC-nin həmin il üçün təxmini bazar payı 7,34% təşkil edir.

Bu göstərici bazarda dövlət iştirakçısının rolunun məhdud səviyyədə olduğunu göstərir. Bu həm də bazarda xeyli sayda özəl sektor oyunçularının fəaliyyət göstərdiyini və rəqabət mühitinin müəyyən dərəcədə açıq olduğunu göstərən göstəricidir.

Ölkəmizdə gübrə və pestisid tədarükçülərinin sayı da onu göstərir ki, bu sahədə rəqabət mövcuddur. Qeyd edək ki, Aqrar Kredit və İnkişaf Agentliyinin məlumatına əsasən gübrə və pestisid təchizatçılarının sayı 222-dir [19].

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin 2024-cü ilin fevral-mart aylarında keçirdiyi “Fermerlərin istehsal resurslarına əlyetərliliyi və məhsul bazarına çıxışı” mövzusunda sorğunun nəticələri, fermerlərin real təcrübələri və qarşılaşdıqları çətinlikləri göstərməklə bazarda rəqabət şəraitini anlamağa əlavə imkanlar yaradır. Sorğuda iştirak edən 2569 fermerin cavabları 2017–2023 illəri üzrə müqayisəli təhlil imkanı vermişdir [20].

Sorğu nəticələri göstərir ki, fermerlərin istehsal resurslarına çıxışı 2017-2023-cü illər ərzində əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Xüsusilə toxum, gübrə, pestisid və kənd təsərrüfatı texnikasına əlçatanlıq sahəsində əvvəlki illərlə müqayisədə həm fiziki çıxış imkanları artmış, həm də keyfiyyət göstəriciləri yaxşılaşmışdır.

Məsələn, texnika tapmaqda çətinlik 2017-ci ildə 26.3% olduğu halda, 2023-cü ildə bu göstərici 8.1%-ə qədər azalmışdır. Bu dəyişiklik bazarda təklifin artmasını və alternativlərin formalaşmasını göstərsə də, hələ də 8% fermerin texnika tapmaqda çətinlik çəkməsi bazarda bəzi struktur problemlərin davam etdiyinə işarə edir. Bəzi regionlarda (xüsusilə dağlıq ərazilərdə) texnika çatışmazlığı hələ də qalmaqda davam edir.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı istehsalçılarının resurs təchizatı sferasında bazar gücündən sui-istifadəyə yol verilməsi halları da mövcud olmuşdur. Bu, ilk növbədə xaricdən alınan və idxal qiymətlərində artımın baş vermədiyi resursların qiymətlərinin əlverişsiz olaraq dəyərləndirən fermerlərin payının yüksəlməsində ifadə olunur. 2019-2021-ci illərdə xaricdən alınan pestisidlərin idxal qiymətlərinin orta səviyyəsi 3.3% azalmış, eyni zamanda sorğu məlumatlarına əsasən həmin dövrdə pestisidlərin qiymətlərinin əlverişsiz olduğunu bildirən fermerlərin xüsusi çəkisi 14.4%-dən 36.1%-ə yüksəlmişdir. 2022-2023-cü illərdə isə pestisidlərin qiymətindən narazılıq azalaraq 20% olmuşdur. Bu gedişat bu sahədə də rəqabətin normallaşmasının göstəricisidir.

Araşdırmalar nəticəsində alınan məlumatlar müvafiq qurumlar tərəfindən kənd təsərrüfatı istehsalçılarına ayrı-ayrı xidmət növlərinin göstərilməsi zamanı qiymət manipulyasiyasına yol verməklə inhisarçılıq davranışı nümayiş etdirilməsinin təsdiqinə birbaşa imkan yaratmır. Belə ki, aqroservis xidmətlərinin qiymətlərindən fermerlərin məmnunluq səviyyəsi 2017-2020-ci illərdə əhəmiyyətli dərəcədə yüksəlmiş, 2021-ci ildə isə bu göstərici demək olar ki, 2017-ci il səviyyəsinə düşmüşdür. Lakin belə vəziyyət həmin ilin əvvəlindən aqroservis xidmətlərinin maya dəyərində əsas yer tutan dizel yanacağının qiymətinin 33% yüksəlməsi ilə bağlı olmuşdur. Xidmətə çəkilən xərcin xeyli yüksəlməsinə baxmayaraq qiymətdə kəskin artmaya yol verilməməsi nəticəsində fermerlərin 2/3 hissəsindən çoxunun həmin qiymətlərdən məmunluğunun saxlanılmasına imkan vermişdir.

Gübrə qiymətlərindən razılıq göstəricisi isə daha dəyişkən olmuşdur. 2019-cu ildə bu göstərici 84.9% olduğu halda, 2022-ci ildə 46.2%-ə düşmüş, 2023-cü ildə isə 69.1%-ə yüksəlmişdir. Bu göstərici 2019-cu ilə nisbətən aşağı olsa da, pandemiya və beynəlxalq qiymət dalğalanmalarının təsirini əks etdirir.

Gübrələrin keyfiyyətindən razılıq 2023-cü ildə 94.6%-ə çatmışdır ki, bu da bazardan keyfiyyətsiz məhsulların çəkilməsinə dair dövlət nəzarətinin artması ilə əlaqələndirilə bilər.

Toxum, pestisid və baytarlıq xidmətləri sahəsində isə ümumi məmnunluq yüksəlmişdir. Məsələn, 2023-cü ildə toxum keyfiyyətindən razılıq 96%, pestisid qiymətindən razılıq 80%, baytarlıq xidmətindən razılıq isə 98%-ə çatmışdır. Bu göstəricilər bu sahələrdə təklifin çoxluğu və rəqabətin nisbətən daha sağlam olduğunu göstərir. Toxum tapmaqda çətinlik 2023-cü ildə cəmi 2% təşkil etmişdir. Bu, toxum istehsalçılarının sayının artması və dövlət tərəfindən təşviq edilən toxumçuluq layihələrinin nəticəsidir.

## Nəticə

Aparılmış tədqiqat göstərir ki, Azərbaycanın kənd təsərrüfatı resurs təminatı bazarında ümumilikdə rəqabət şəraiti son illərdə müsbət istiqamətdə inkişaf etmişdir. Xüsusilə 2018-ci ildən sonra qəbul edilən və bazarın liberallaşmasına yönəldilən qərarlar nəticəsində alternativ təchizatçılar bazara daxil olmuş və fermerlərin seçim imkanları genişlənmişdir.

Bazarda ümumi rəqabət mühiti mövcuddur, lakin bu mühit sahədən sahəyə və regiondan regiona dəyişkənlik göstərir. Gübrə və pestisid bazarlarında özəl sektorun rolunun artması rəqabəti artırsa da, texnika icarəsi bazarında bəzi regionlarda dövlət iştirakçısının dominantlığı müşahidə olunur.

Qiymətdən və keyfiyyətdən məmnunluq göstəriciləri zamanla yüksəlmiş, bu isə bazarda həm təklifin, həm də xidmət keyfiyyətinin artdığını göstərmişdir.

Bununla yanaşı, rəqabət mühitinin daha da inkişaf etdirilməsinə ehtiyac duyulur. Belə ki,fermerlərin resurslara çıxış imkanları yaxşılaşsa da, hələ də struktur və coğrafi bərabərsizliklər qalmaqdadır. Eyni zamanda, bazar gücündən sui-istifadə halları sistematik xarakter daşımır, lakin bəzi illərdə qiymət manipulyasiyası və keyfiyyətlə bağlı narazılıqlar qeydə alınmışdır.

Bu nəticələr əsasında, rəqabətli resurs təminatı bazarının inkişafı istiqamətində atılmalı olan əsas addımlara aşağıdakılar aid edilə bilər:

1. Texnika bazarında rəqabətin gücləndirilməsi üçün özəl texnika icarəsi təşəbbüslərinin dəstəklənməsi və güzəşt mexanizmlərinin bir daha nəzərdən keçirilməsi məqsədəuyğundur.
2. Toxum və gübrə təchizatçılarının sayının artması rəqabət şəraitinə müsbət təsir göstərsə də, keyfiyyətə və təhlükəsizliyə təhdid yaranma riskləri tam aradan qalxmamışdır. Bu iqtiqamətdə toxum və gübrə təchizatçılarına daha sərt standartlarin tətbiq edilməsi məqsədəuyğun olardı.
3. Xidmətlərin təqdim olunmasında regionlararası disbalansın azaldılması üçün infrastruktur və logistika imkanlarının artırılması, dağlıq ərazilərdə aqroservis çıxış nöqtələrinin sıxlığının yüksəldilməsi məqsədəuyğundur.

## Ədəbiyyat

1. Porter, M. E. (1980). *Competitive strategy: Techniques for analyzing industries and competitors*. Free Press.

2. OECD (2021), *Methodologies to measure market competition, OECD Competition. Committee Issues Paper,* https://oe.cd/mmmc
3. FAO, The State of Food and Agriculture – 2023
4. Xəlilov H., Hacıyeva S., Qasımova N. (Aprel 2023). "Modern dəyər zəncirinə keçid şəraitində kənd təsərrüfatı məhsulları bazarında rəqabət mühitinin xüsusiyyətləri ." Kənd təsərrifatı iqtisadiyyatı, N1 (43), 9.
5. Dünya Bankı (2021). *Enabling the Business of Agriculture 2021*. Washington, DC: World Bank Group. ISBN: 978-1-4648-1663-2. https://eba.worldbank.org
6. "Aqroservis" - Satılan aqrokimyəvi maddələr haqqında məlumat (2020-2024)
7. Dövlət Statistika Komitəsinin az006 - Mineral və üzvi gübrələrin istifadəsi hesabatı
8. Azərtac-ın məlumatı: https://azertag.az/xeber/aqrolizinq_asc_terefinden_bu_il_olkeye_1389_min_ton_mineral_gubre_getirilib-1212599
9. Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2018-ci il tarixli "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" fərmanı
10. "Aqroservis" ASC-nin yerli qurumlarının adları və onların dislokasiyası 2025
11. "Aqroservis" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının güzəştlə satılması barədə müqavilə forması
**12.** "Aqroservis" ASC-yə məxsus mineral gübrələrin alqı-satqı müqaviləsi forması
13. Dövlət Statistika Komitəsinin 1.15 (Kənd təsərrüfatının texnika ilə təminatı) hesabatı
14. "Volza" qlobal ticarət portalı (08.07.2025 tarixinə statistika). https://www.volza.com/p/agricultural-equipment/buyers/buyers-in-azerbaijan/hsn-code-nil/
15. 2020-2024-cü illərdə müqaviləyə çıxan texnikalar (Aqroservis ASC)
16. Dövlət Statistika Komitəsinin 1.14 (Əsas növ kənd təsərrüfatı texnikasının parkı) hesabatı
17. Aqrar Tədqiqatlar Mərkəzi (2024). Taxıl biçini haqqında məlumat https://atm.gov.az/az/news/1484/taxil-zemilerinin-73-faizinde-bicin-basa-catib/
18. FAO (2023). Pesticide use dataset. https://www.fao.org/faostat/en/#data/RP/visualize
19. AKİA (2024). Gübrə və pestisid təchizatçılarının siyahısı. https://akia.gov.az/az/content/29.html
20. Aqrar Tədqiqatlar Mərkəzi (2024). "Fermerlərin istehsal resurslarına əlyetərliliyi və məhsul bazarına çıxışı" mövzusunda sorğu